AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

# İCTİMAİ ŞURALARIN İNKİŞAF VƏZİYYƏTİ ÜZRƏ HESABAT

Mirəli Hüseynov

2017

“Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramı

# MÜNDƏRİCAT

GİRİŞ ........ 3

METODOLOGİYA ........ 4

I BÖLMƏ: İCTİMAİ ŞURALARIN İNKİŞAF VƏZİYYƏTİ ........ 5

*a. İctimai Şuralar üzrə məlumatlılıq və məlumatlara çıxış* ........ 5

*b. İctimai Şuraların yaradılması* ........ 8

*c. İctimai Şuralara seçkilər* ........ 10

*d. İctimai Şuraların fəaliyyətinin səmərələliyi* ........ 13

II BÖLMƏ: NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR ........ 19

*a. Nəticələr* ........ 19

*b. Tövsiyyələr* ........ 21

**“Bu Hesabat Niderland Krallığının Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən və Avrasiya Əməkdaşlıq Fondu tərəfindən həyata keçirilən “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramı çərçivəsində çap olunmuşdur. Burada təsvir olunan məzmun və yerləşdirilən məlumatlar Niderland Krallığının Xarici İşlər Nazirliyinin və Avrasiya Əməkdaşlıq Fondunun rəsmi mövqeyini əks etdirməyə bilər.”**

## GİRİŞ

Ictimai idarəetmədə vətəndaşların iştirakı və ictimai nəzarətin gücləndirilməsi məsələləri son illər rəsmi dövlət hakimiyyətinin fəaliyyətində əsas prioritet istiqamətlərdən birini təşkil edir. Müvafiq qanunvericilik aktlarının qəbul edilməsilə iştirakçılığın legitim əsasları gücləndirilmiş və daha əlverişli hüquqi mühit yaradılmışdır. Xüsusilə 1 iyun 2014-cü ildən qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu (Qanun) ictimai iştirakçılığın perspektiv inkişafı üçün mühüm əhəmiyyətə malik olmuşdur. Formalarını və icra mexanizimlərini daha aydın şəkildə müəyyən etməklə Qanun ictirakçılığın nəzəriyyədən praktikaya transformasiya edilməsinə mühüm töhfə vermişdir.

Qanun iştirakçılığın müxtəlif formalarını müəyyən etmiş olsada, praktikada əsasən İctimai Şuralar formasından daha çox istifadə edilir. Formalaşma qaydası, tərkibi, malik olduğu səlahiyyətlər onlara marağı artırır və onları daha mühüm iştirak forması kimi digərlərindən fərqləndirir. Bu fərqli xüsusiyyətlər eyni zamanda onlardan gözləntiləri də artırır. Vətəndaş cəmiyyəti İctimai Şuralara iştirakçılığı və icraedici hakimiyyətin fəaliyyətinə ictimai nəzarəti formal deyil, real şəkildə təmin edən bir institut kimi nəzərdən keçirir. Rəsmi hakimiyyətin özünün də İctimai Şuralara daha çox önəm verməsi ondan gözləntiləri artıran amillərdəndir.

Dövlətin idarə olunmasında vətəndaşların iştiraka cəlb edilməsi, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında qarşılıqlı səmərəli fəaliyyətin təşkili, dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının müdafiəsinin təmin edilməsi məqsədi ilə yaradılan İctimai Şuralar təəssüf ki, gözləntilərə adekvat olmayan tempdə inkişaf edir. İctimai Şuralardan ciddi gözləntilər olduğu halda onun mövcud vəziyyəti nə ilə izah edilə bilər? Bu Hesabatın hazırlanmasında məqsəd məhz bu suala cavab tapmaqla yanaşı, İctimai Şuraların inkişafına təsir göstərən amilləri müəyyən etmək və tövsiyyələr hazırlamaq olmuşdur.

# METODOLOGİYA

Tədqiqat obyekti üzrə hərtərəfli və obyektiv nəticələrin əldə edilməsi üçün məsələyə aidiyyatı olan müxtəlif tərəflər – QHT-lər, İctimai Şura üzvləri, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında sorğu keçirilib. Sorğu anketi predmet üzrə məlumatlılığın, münasibətin və təcrübənin öyrənilməsinə uyğun şəkildə tərtib edilib. Hər bir tərəf üçün ayrıca sorğu anketi hazırlanmış və 200-dən çox QHT nümayəndəsinə, 50-dək İctimai Şura üzvünə, 13 mərkəzi və 25 yerli icra hakimiyyəti orqanlarına elektron qaydada göndərilmişdir. Bunlardan 95 QHT, 37 ictimai şura üzvü, 6 mərkəzi icra hakimiyyəti və 5 yerli icra hakimiyyəti orqanları sorğuya münasibət bildiriblər.

Açıq mənbələr kimi əsasən müvafiq icra hakimiyyətləri orqanlarının veb-səhifələrindən və mediada əks olunmuş məlumatlardan istifadə edilib. Eyni zamanda əldə edilməsi çətin olduqda şəxsi əlaqələrdən istifadə edilməklə zəruri məlumatlar toplanılıb. Hesabatın hazırlanmasında indiyədək aparılmış araşdırmalardan da istifadə edilib. Sorğu anketlərinin sualları ekspertlərlə müzakirələr və məsləhətləşmələr əsasında müəyyən edilib.

Hesabatda hər bir bölmənin əvvəlində məsələ üzrə hüquqi konktekst, onun ardınca praktik vəziyyət və daha sonra respondentlərin münasibəti təqdim edilir.

# I BÖLMƏ: İCTİMAİ ŞURALARIN İNKİŞAF VƏZİYYƏTİ

## *a. İctimai Şuralar üzrə məlumatlılıq və məlumatlara çıxış*

İctimai Şuraların əsas iştirakçıları vətəndaş cəmiyyəti institutları (VCİ) olduqlarından onların səmərəli fəaliyyəti digər amillərlə yanaşı VCİ təmsilçilərinin bu institutun mahiyyəti haqqında məlumatlılıq səviyyəsindən, o cümlədən məlumatlara çıxış imkanlarından da əhəmiyyətli dərəcədə asılıdır. İctimai Şuraların seçkilər qaydasında formalaşdırılması, üzvlərin və ümumilikdə İctimai Şuraların ictimai məsuliyyətli olması VCİ-lərin onlar haqqında məlumatlı olmasını zəruri edir. Məlumatlılıq səviyyəsi İctimai Şuralara seçkilərdə iştirak vəziyyətinə, İctimai Şuraların və üzvlərin fəaliyyətinin qiymətləndirilməsinə və digər bu kimi məsələlərə təsir göstərən faktorlar kimi çıxış edir.

Qanunvericilik ictimai məlumatlılığın təmin edilməsi üzrə müvafiq icra hakimiyyəti orqanlarının və İctimai Şura üzvlərinin üzərinə müəyyən vəzifələr qoyub. Qanunun 6.3. maddəsinə görə, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları öz internet səhifəsi və mövcud olan digər vasitələrlə İctimai Şuraya namizədlərin irəli sürülməsi, onların qeydiyyatının başlanması və başa çatması vaxtını elan etməlidirlər. Eləcədə Qanunun 7.3. maddəsi İctimai Şuranın vəzifələri sırasına şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq və öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək kimi məsələləri də daxil etmişdir.

İctimai Şuralarla bağlı məsələ eyni zamanda Açıq Hökumətin Təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planına (MFP) da daxil edilib. Planın 4.2.2. bəndində mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən İctimai Şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi vəzifələri nəzərdə tutulub.

Hazırda İctimai Şura fəaliyyət göstərən altı mərkəzi icra hakimiyyəti orqanından yalnız Ədliyyə Nazirliyinin və Dövlət Miqrasiya idmətinin veb-saytlarında İctimai Şuralar haqqında bölmələr yaradılıb və müəyyən məlumatlar yerləşdirilib. İctimai Şuraların olduğu digər mərkəzi icra hakimiyyəti orqanlarının saytlarında isə İctimai Şuraların fəaliyyətini əks etdirən bölmələr yaradılmamışdır. Yerli icra hakimiyyətləri orqanları səviyyəsində isə beş rayonun –Binəqədi, Nərimanov, İsmayıllı, Qəbələ və Xocavənd rayonlarının veb-səhifələrndə İctimai Şuralara dair alt-bölmələr yaradılıb ki, burada da əsasən seçkilərin keçirilməsi üçün komissiyanın yaradılması üzrə icra başçılarının sərəncamlarından və müvafiq normativ-hüquqi aktlardan başqa digər məlumatlara rast gəlinmir.

İcra orqanlarının İctimai Şuralara mövcud münasibəti QHT-lərin bu məsələ üzrə məlumatlılığına mənfi təsir göstərib. Belə ki, QHT-lər arasında keçirilən sorğunun nəticələri məlumatlılıq

səviyyəsinin o qədər də yüksək olmadığını göstərir. “İctimai Şuralar haqqında özünüzü məlumatlı hesab edirsinizmi?” sualına respondentlərin 45% -i məlumatlı, 42% i qismən məlumatlı, 13% isəümumiyyətlə məlumatlı olmadığını bildirib.




Məlumatlara çıxış imkanlarını müəyyənləşdimək məqsədilə anketə daxil edilən “İctimai Şuraların fəaliyyəti haqqında məlumatı daha çox haradan alırsınız?” sualına isə QHT-lərin 58%-i mətbuatdan, 45%-i sosial şəbəkələrdən, 16%-i müvafiq icra hakimiyyəti orqanlarının veb-səhifələrindən, 10%-i TV və radiodan və başqa mənbələrdən əldə etdiklərini, 3%-i isə heç bir yerdən almadıqlarını qeyd ediblər.




Fəaliyyətdə olan ictimai şuralarla bağlı məlumatlılığın səviyyəsi üzrə ortaya çıxan statistika əsas məqsədi müəyyən etməklə bərabər İctimai Şuraların reytiniqinin ölçülməsi üçün də etibarlı mənbə kimi istifadə edilə bilər. Rəy bildirən QHT-lərin 48%-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 45%-i Ədliyyə Nazirliyi, 19%-i Azərbaycan Respublikası Prezidenti yanında

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, 16%-i universitetlər, 13%-i Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 10%-i Dövlət Miqrasiya Xidməti, 10 %-i Binəqədi icra hakimiyyəti və 6%-i Dövlət İmtahan Mərkəzi yanında İctimai Şuraları tanıdıqlarını yazıblar.




Dövlət İmtahan Mərkəzində İctimai Şuranın yaradılması planlaşdırıldığı halda respondentlərin bu qurumu qeyd etməsi xeyli maraq doğurur.

Məlumat mənbəyi kimi icra hakimiyyəti orqanlarının veb-səhifələrinə müraciət edilməsi üzrə məsələdə QHT-lərin cavabları ilə İctimai Şura üzvlərinin cavabları arasında fərqli mənzərə yaranır. Sorğunun nəticələrindən İctimai Şura üzvlərinin QHT təmsilçiləri ilə müqayisədə veb-saytlara daha çox üstünlük vermələri aydın olur. Şura üzvləri "əhalinin məlumatlandırılmasında aşağıdakı hansı üsullardan istifadə edilir" sualına sosial şəbəkələrdən (92%) sonra ən çox istifadə etdikləri üsullardan biri kimi məhz veb-saytı (75%) işarələyiblər.



Şura üzvləri icra hakimiyyəti orqanlarının veb-saytlarına daha çox müraciət etmələrini başqa bir suala münasibətlərində də təsdiq ediblər. “İctimai Şuraya seçkilər haqqında məlumatı haradan əldə etmişdiniz?” sualınaŞura üzvlərinin 58,33%-i məhz icra hakimiyyəti orqanlarının veb-səhifələrini göstəriblər.




## *b. İctimai Şuraların yaradılması*

İstər Qanun, istərsədə Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il tarixli Fərmanı İctimai Şuraların yaradılması ilə bağlı vaxt çərçivəsi müəyyən etməyib. Qanunvericilik icra hakimiyyəti orqanlarına İctimai Şuraları yaratmaqda tam sərbəstlik verir və yaradıb-yaradılmamasını icra orqanlarının iradəsinə bağlayır.

Fərmanda Nazirlər Kabinetinə Qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsinin və fəaliyyətinə ictimai nəzarət ediləcək mərkəzi icra hakimiyyəti orqanları barədə təkliflərin hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırığından 3 ildən artıq bir müddət keçmiş olsada, bu tapşırıqlar hələ də yerinə yetirilməmişdir.

MFP-də 2016-2018-ci illərdə yeni İctimai Şuraların yaradılması ümumi şəkildə nəzərdə tutulmasına baxmayaraq, İctimai Şuraların yaradılması üzrə mövcud tendensiya tərəqqi olacağına ümid vermir.

Ölkə təcrübəsində mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai təsisatların mövcudluğu qanunvericiliyi və rəsmi dövlət siyasətini xeyli qabaqlamışdır. Belə ki, Gənclər və İdman Nazirliyi yanında 1994-cü ildən, Ədliyyə Nazirliyi yanında 2006-cı ildən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında 2010-cu ildən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara

Xidmət və Sosial İnnovasiyar üzrə Dövlət Agentliyi yanında 2013-cü ildən ictimai təsisatlar fəaliyyət göstərir. Bu təsisatlar Qanunda nəzərdə tutulan kimi İctimai Şura deyil, buna oxşar adlar altında yaradılmış olsalarda (Ədliyyə Nazirliyi yanında İctimai Komitə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Ekoloji Şura, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yanında Elektron Xidmətlərin təşviqi üzrə İctimai Şura) mahiyyət dəyişmir. 2015-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuraların yaradılması ilə mərkəzi icra hakimiyyəti orqanları yanında İctimai Şuraların sayı 6-ya çatmış oldu.

Yerli icra hakimiyyəti orqanları səviyyəsində isə yalnız beş rayonda İctimai Şuraların yaradılması haqqında məlumatlar mövcuddur. Bu səviyyədə İctimai Şuraların yaradılmasında ilkə imza atan Binəqədi rayon icra hakimiyyəti olub[1]. Digər dörd rayonun – Nərimanov[2], İsmayıllı[3], Qəbələ[4] və Xocavənd [5] rayonlarının veb-səhifələrndə İctimai Şuralara seçkilərin keçirilməsi üçün komissiyanın yaradılması üzrə həmin rayonların icra başçılarının sərəncəmları olsada, seçkilərin keçirilməsi haqqında heç bir məlumata rast gəlinmir.

Adları qeyd edilən icra hakimiyyəti orqanları istisna olmaqla digər icra hakimiyyəti orqanlarının İctimai Şuralar yaratmağa tələsmədikləri müşahidə olunur. Ictimai Şuraların yaradılması ilə bağlı sorğuya icra hakimiyyəti orqanlarının cavabları maraqlı olmuşdur. Mədəniyyət və Turizm Nazirliyi sorğuya baxılaraq cavab veriləcəyini, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi 13 apreldən 12 mayadək Komitə yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatının elan edildiyini, Vergilər Nazirliyi İctimai Şuraların yaradılması istiqamətində hazırlıq işlərinin aparıldığını, Şirvan və Şəki şəhər icra hakimiyyətləri İctimai Şura yaradıldığını bildirmiş olsalar da, qeyd edilən icra hakimiyyəti orqanlarının veb-saytlarında ictimai şuralarla bağlı heç bir məlumat yerləşdirilməmişdir. Lənkəran şəhər icra hakimiyyətindən isə Apelyasiya Şurası və İctimai Komissiya yaradıldığını bildirməklə əslində İctimai Şuralar haqqında məlumatsız olduqlarını nümayiş etdiriblər.

Bu arada mediada Dövlət İmtahan Mərkəzində İctimai Şuranın yaradılması haqqında məlumat yayıldı. DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə cari ilin mart ayının 17-də keçirdiyi mətbuat konfransında ümumi orta təhsil bazasında buraxılış imtahanlarının keçirilməsi, materialların emalı və yazı işlərinin yoxlanılmasına ictimai nəzarətin təşkili, bu prosesin şəffaflığının təmini məqsədilə İctimai Şura yaradılacağını deyib. Onun sözlərinə görə İctimai Şura DİM Direktorlar Şurası tərəfindən formalaşdırılacaq.[6]

QHT-lərin 81%-i İctimai Şuraların yaradılmasında yubanmanın səbəbi kimi dövlət orqanlarının

---

[1] http://binegedi-ih.gov.az/page/144.html
[2] http://narimanov-ih.gov.az/
[3] http://ismayilli-ih.gov.az/
[4] http://qebele-ih.gov.az/page/111.html
[5] http://xocavend-ih.gov.az/
[6] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=118227

onların fəaliyyətinə ictimai nəzarəti arzulamadıqlarını qeyd ediblər. Bu respondentlərin 39%-i hesab edir ki, yubanmanın səbəbi İctimai Şuraların yaradılmaması üzrə hüquqi məsuliyyətin müəyyən edilməməsi ilə bağlıdır. Şuraların yaradılması ilə bağlı vaxt çərçivəsinin müəyyən edilməməsinin yubanmaya təsir etdiyini isə respondentlərin 26%-i əsas səbəb kimi qeyd ediblər. Respondentlərin 6%-i yubanmanın səbəbini bilmədiklərini, 13%-i isə başqa səbəbləri göstəriblər.




## c. *İctimai Şuraya seçkilər*

Qanuna görə, İctimai Şura 5-15 üzvdən ibarət tərkibdə olmaqla VCİ nümayəndələri tərəfindən iki il müddətinə seçilir. İctimai Şuralara seçkilərin təşkili həmin mərkəzi və yerli icra hakimiyyəti, habelə yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanı öz internet səhifəsi və mövcud olan digər vasitələrlə İctimai Şuraya namizədlərin irəli sürülməsi, onların qeydiyyatının başlanması və başa çatması vaxtını elan edir. Seçkilərin təşkili məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yanında 4 üzvü yanında İctimai Şura yaradılan qurumun, 5 üzvü isə VCİ nümayəndələrindən olmaqla 9 nəfərdən ibarət seçki komissiyaları yaradılır. İctimai Şuraya üzvlər vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda VCİ nümayəndələri tərəfindən seçilir. Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış şəxslər İctimai Şuranın tərkibinə seçilmiş hesab olunurlar.

Qanun qəbul edilənə qədər İctimai Şuralar əsasən ümumi qanunvericiliklə və Şuraların təşkil edildiyi dövlət orqanlarının daxili qaydaları ilə tənzim edilirdi. Praktikada İctimai Şuraların tərkibinin bir qayda olaraq müvafiq icra hakimiyyəti orqanlarının özlərinin dəvət etdikləri VCİ nümayəndələrindən formalaşdırılması təcrübəsi geniş yayılmışdı. Qanunun qəbulu ilə vahid

tənzimləmə müəyyən edildiyindən mövcud İctimai Şuraların qanunvericiliyin şərtlərinə uyğunlaşdırılması, yəni onların seçkilər əsasında formalaşdırılması baş verməli idi. Yalnız Ədliyyə Nazirliyi bu zərurəti anlayaraq yeni seçkilər keçirməklə İctimai Komitənin legitimliyini təmin etmiş oldu. Qanunun qəbulundan əvvəl yaradılmış digər qurumlardakı ictimai təsisatlar isə hələ də özfəaliyyət şəklində fəaliyyət göstərirlər. Bu qurumların yanında yaradılmış İctimai Şuralar dəvət əsasında formalaşdırılmış tərkibdə öz işlərini davam etdirirlər.

Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.5. bəndində deyilir ki, İctimai Şuranın üzvlərinin say həddi həmin orqanın fəaliyyət istiqamətlərinin genişliyi və iş həcmi nəzərə alınmaqla, 5-15 üzvdən ibarət tərkibdə seçki komissiyaları tərəfindən müəyyən edilir. Əsasnamənin bu tələbinə rəğmən İsmayıllı[7] və Xocavənd[8] rayonlarının icra başçıları İctimai Şuraların say tərkibini öz sərəncamları ilə müəyyən ediblər. Ədliyyə Nazirliyinin yanında fəaliyyət göstərən İctimai Komitənin say tərkibi isə "Məhkumların islah edilməsində ictimaiyyətin iştirakı və cəzanı icra edən müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi Qaydaları"nın 3.5. bəndində nəzərdə tutulub.[9] Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Ekoloji Şuraya üzvlərin qəbulu Şura üzvlərinin səsverməsi ilə həll edilir.[10]

İctimai Şuralara seçkilər və üzvlük məsələsinə respondentlərin münasibəti İctimai Şuraların Qanunla müəyyənləşdirilmiş qaydada təşkili və fəaliyyətinə təsir göstərən amilləri və bununla bağı bir çox suallara cavab tapmağa xeyli dərəcədə imkan verir. Sorğunun nəticələri QHT-lərin və İctimai Şura üzvlərinin məsələyə fərqli münasibətlərinin olduğunu göstərir.

Maraqlı nəticələrdən biri QHT təmsilçilərinin İctimai Şuralara seçkilərə maraq nümayiş etdirməməsi və seçki mexanizminə etimad etməməsi ilə bağlıdır. QHT respondentlərin mütləq əksəriyyəti – 84%-i "İctimai şuraya üzv seçilməyə nə vaxtsa təşəbbüs göstərmisinizmi?" sualına "Xeyr" cavabını qeyd ediblər. Yalnız 16% təşəbbüs göstərdiyini bildirib ki, bunların da bir hissəsinin hazırkı İctimai Şura üzvləri olduğunu güman etmək olar.




[7] http://ismayilli-ih.gov.az/page/92.html
[8] http://www.xocavend-ih.gov.az/page/47.html
[9] http://www.justice.gov.az/media160.html
[10] http://az.trend.az/azerbaijan/society/2481125.html

Təşəbbüs göstərməməyinizə aşağıdakılardan hansı təsir göstərib?" sualına 36% seçkilər haqqında məlumatının olmamasını, 21% üzv olmağa marağının olmamasını, 36% isə İctimai Şuralara etimadının olmamasını qeyd edib.




İctimai Şuraya hansı qaydada üzv olmaları ilə bağlı suala Şura üzvü olan respondentlərin 91,67% seçkilər qaydasında, 8,33% isə mövcud olan Şuranın qərarı əsasında üzv olduqlarını qeyd ediblər.

İctimai Şuralara seçki mexanizminə münasibətdə QHT-lərin cavabları ilə Şura üzvlərinin cavabları bir-birindən kəskin şəkildə fərqlənib. "Fikrinizcə, mövcud mexanizm seçkilərin obyektivliyini təmin edirmi" sualına Şura üzvlərinin 67% "Bəli" dedikləri halda, QHT-lərin 77% "Xeyr" cavabı verib.




"Seçki mexanizmində sizi qane etməyən nədir" sualına Şura üzvlərinin 16%-i seçki komissiyalarının maraqlı tərəflərdən təşkil edildiyini, 16%-i seçki keçirilən orqanın seçki

komissiyalarına təsir imkanları olduğununu qeyd edib. Həmin suala QHT-lərin cavabları da Şura üzvlərinin cavablarından xeyli dərəcədə fərqlənib. QHT respondentlərin 42% mövcud qaydanın seçki keçirilən orqana uyğun VCİ nümayəndələrini seçki komissiyalarına dəvət etməyə imkan verməsi, 63% seçki komissiyalarının maraql tərəflərdən təşkil edilməsi, 71% seçki keçirilən orqanın seçki komissiyalarına təsir imkanlarına şərait yaratması qənaətini bölüşür.




## *d. İctimai Şuraların fəaliyyətinin səmərəliliyi*

Qanuna əsasən, İctimai Şuralar öz fəaliyyətlərini iclaslar formasında həyata keçirirlər. İctimai Şuranın iclasları ildə dörd dəfədən az olmayaraq keçirilir. İctimai Şuranın iclasının gündəliyinin layihəsi İctimai Şura sədrinin və üzvlərinin təklifləri əsasında formalaşır və iclasda təsdiq olunur. Mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanı İctimai Şuranın müzakirəsinə məsələlər təklif edə bilər. İctimai Şuranın aşağıdakı hüquqları vardır:

- ✓ *mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;*
- ✓ *ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təkliflər vermək;*
- ✓ *müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;*
- ✓ *müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;*
- ✓ *ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təqdim etmək;*
- ✓ *dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;*
- ✓ *ictimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək;*
- ✓ *hüquqi aktların layihələrinin ictimai müzakirəsini keçirmək;*
- ✓ *şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını, ekspertləri və elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrini, ayrı-ayrı mütəxəssisləri cəlb etmək;*

Qanun İctimai Şuranın vəzifələrinə aşağıdakıları aid edib:

- ✓ *Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə digər normativ hüquqi aktlara riayət etmək;*
- ✓ *şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;*
- ✓ *öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;*
- ✓ *müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.*

İctimai Şuraların nə qədər səmərəli fəaliyyət göstərməsini müəyyən etmək üçün eyni sualla həm Şura üzvlərinə, həm də QHT-lərə müraciət edilmişdir. Cavablar məsələyə kifayət qədər fərqli münasibəti ortaya çıxarmışdır. “Üzvü olduğunuz İctimai Şura səmərəli fəaliyyət göstərirmi” sualına Şura üzvlərinin 50%-i bəli, 41%-i qismən, 8%-i isə yox cavabını verib. QHT-lərin 55% isə hesab edir ki, İctimai Şuralara səmərəli fəaliyyət göstərmirlər.




İctimai Şuranın səmərəli fəaliyyət göstərə bilməsinə hansı amillərin mənfi təsir göstərməsi ilə bağlı suala Şura üzvlərinin 16%-i müvafiq təcrübənin yoxluğunu, 16%-i Şura üzvlərinin lazımi qədər səriştəli olmadığını, 25%-i Şuraların səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılmadığını, 8%-i dövlət orqanlarının səmərəli əməkdaşlıqda maraqlı olmadığını, 33%-i isə başqa cavabını veriblər. Şuralarda təmsil olunmayan QHT-lərin İctimai Şuraların səmərəli fəaliyyət göstərə bilməməsinin səbəbləri ilə bağlı fikirləri fərqlidir. Onlar ən təsirli səbəblər kimi İctimai Şura üzvlərinin müstəqil olmamasını(rəyi soruşulanlanların 52%-i), İctimai Şuraların səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılmamasını (35%), müvafiq təcrübənin olmamasını (29%) hesab edirlər.



“İctimai Şuranın iclasının gündəliyini kimin müəyyən etməsi” sualına Şura üzvlərinin 75% iclasın gündəliyini üzvlərin təklifi ilə İctimai Şuranın sədri tərəfindən, 41,67 % birbaşa İctimai Şuranın sədri tərəfindən, 25% İctimai Şuranın sədri yanında fəaliyyət göstərdiyi orqanla razılaşdırmaqla, 16,67% başqaları, 8, 33% yanında fəaliyyət göstərdiyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edildiyini qeyd edib.




91% bildirib ki, İctimai Şuranın iclasının gündəliyi iclasdan əvvəl tanışlıq üçün onlara göndərilir, 8% isə qismən göndərildiyini ifadə edib.

75% İctimai Şura üzvü onların qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün zəruri bilik və bacarıqlara malik olduqlarını, 25% bu vəzifələrin qismən yerinə yetirildiyini vurğulayıb. “İctimai Şura üzvlərinin hansı məsələlər üzrə bilik və bacarıqlarının artırılmasına daha çox ehtiyac vardır” sualına 41% müvafiq sahə üzrə qanunvericilik bazası ilə bağlı məlumatlılığın artırılması, 16% dövlət və QHT idarəetməsi üzrə məlumatlılığın artırılması, 8% yaxşı idarəetmənin prinsipləri üzrə məlumatlılığın artırılması, 8% ictimai əlaqələr üzrə bilik və bacarıqların artırılması, 33% ictimai müzakirələrin təşkili və aparılması üzrə bilik və bacarıqların artırılması, 33% ictimai rəy sorğusunun keçirilməsi üzrə bilik və bacarıqların artırılması, 8% ünsiyyət bacarıqları üzrə bacarıqların artırılmasının vacibliyini qeyd edib.




İctimai Şura üzvü olan 75% respondent qeyd edib ki, İctimai Şura indiyədək icra hakimiyyəti orqanına məlumat və hər hansı hüquqi aktın layihəsi üçün müraciət edib. 75% respondent bildirib ki, üzvü olduğu İctimai Şura indiyədək yanında fəaliyyət göstərdiyi icra hakimiyyəti orqanından zəruri olan məlumatlar və hər hansı hüquqi aktın layihəsi üçün müraciətlərə müsbət cavablar alıb. Habelə Şura üzvlərinin 91%-i bildirib ki, indiyədək icra hakimiyyəti orqanına hər hansı məsələ ilə bağlı təkliflər də veriblər. 73% Şura üzvü indiyədək ictimai əhəmiyyətli məsələlərin həllinə dair VCİ-nın təkliflərini toplamaq və müvafiq orqanlara təqdim etmək təşəbbüsü ilə çıxış etdiyini, 92% ictimai əhəmiyyət kəsb edən məsələlər üzrə hər hansı ictimai tədbirlər təşkil olunduğunu, 100% öz fəaliyyəti barədə əhalini məlumatlandırdığını və 83% öz fəaliyyəti barədə illik hesabat hazırlayaraq dərc etdiyini qeyd edib. Bu respondentlər əhalinin məlumatlandırılmasında 92% sosial şəbəkələrdən, həmçinin veb-saytlar, media, TV, Radio və digər vasitələrdən istifadə etdiklərini qeyd ediblər.

Üzvü olduğunuz İctimai Şura indiyədək yanında fəaliyyət göstərdiyi icra hakimiyyəti orqanına hər hansı məsələ ilə bağlı (məsələn, ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi, müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi, müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması, müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək vəs.) təkliflər veribmi” sualına 83% bəli, 10% isə xeyr cavabı verib. Bu təkliflərin müvafiq qurum tərəfindən qəbul edildiyini 83% ifadə edib.

“Üzvü olduğunuz İctimai Şura indiyədək ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq və müvafiq orqanlara təqdim etmək

təşəbbüsü ilə çıxış edibmi" sualına 66% bəli cavabını verib. 91% bildirib ki, üzvü olduğu İctimai Şura indiyədək ictimai əhəmiyyət kəsb edən məsələlər üzrə ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər təşkil edib. Habelə 91% qeyd edir ki, üzvü olduğu Şura öz fəaliyyəti barədə əhalini mütəmadi məlumatlandırır. 83% bildirir ki Şura bu məqsədlə illik hesabat hazırlayır və dərc edir.



# II BÖLMƏ: NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR

## *a. Nəticələr*

1.İlk növbədə aparılan sorğular və digər vasitələrlə əldə edilmiş məlumatlara istinad edərək QHT təmsilçilərinin İctimai Şuralar haqqında qanunvericilik və praktik baxımdan məlumatlılıq səviyyəsinin qənaətbəxş olmadığını qeyd etmək zəruridir. Xüsusilə də informasiyaya çıxış imkanları və texniki resursları geniş olan, ictimai problemlərə peşəkarlıqla yanaşmaq təcrübəsi qazanmış QHT-lərin məlumatlılıq səviyyəsinin aşağı olması mənfi hal kimi qiymətləndirilir. QHT-lərin məlumatları əsasən görüntülü, səsli və yazılı mediadan, sosial şəbəkələrdən, habelə müvafiq icra orqanlarının veb səhifələrindən aldığı aydın olsa da, dolğun olmadığı qənaəti üzə çıxır.

2. İctimai Şuralar haqqında ümumi məlumat səviyyəsinin aşağı olması, həm də onların funksional fəaliyyəti barədə də məlumatların zəif olmasına gətirib çıxarıb. Fəaliyyətdə olan İctimai Şuralardan Ədliyyə Nazirliyi və ƏƏSMN istisna olmaqla digər qurumların fəaliyyəti barədə də məlumatlar xeyli məhduddur.

3. Hesabat hazırlanarkən keçirdiyimiz sorğuda iştirak edən respondetlərin və digər vasitələrlə təmasda olduğumuz QHT nümayəndələrinin əksəriyyəti İctimai Şuraların səmərəli fəaliyyət göstərmədiyi qənaətindədir. QHT-lər hesab edir ki, İctimai Şuraların səmərəli fəaliyyət göstərə bilməməsinə təsir göstərən amillər əsasən üzvlərin müstəqil olmaması, səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılmaması, habelə müvafiq təcrübənin və lazımi qədər səriştənin yoxluğudur.

4. İctimai Şuralar qanunla müəyyən edilmiş normalar nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi əsasnaməyə uyğun olaraq VCİ nümayəndələri tərəfindən seçilir. Analizlər göstərir ki, QHT-lərin mütləq əksəriyyəti İctimai Şuralara üzv seçilməyə və belə bir qurumda təmsilçiliyə maraq göstərmirlər. İctimai Şuraların səlahiyyət çərçivəsini qanunvericiliklə genişləndirmədən VCİ-ni onun işinə cəlb etmək asan olmayacaq. İctimai Şuranın səlahiyyət çərçivəsi ilə tanış olan müstəqil şəxslər də belə bir ortamda müvafiq quruma hansısa müsbət töhfə verəcəyini güman etmirlər. Xüsusilə də İctimai Şuraların təşkili zamanı müəyyən edilən seçki proseduru qənaətbəxş deyil. Bununla yanaşı, həm də mövcud mexanizmin Şuralara seçkilərin obyektivliyini təmin etməyə imkan vermədiyi düşüncəsi formalaşıb. Ümumiyyətlə, Şuralarda təmsilçiliyə marağın zəifliyi, habelə seçki mexanizmindən qaynaqlanan neqativ amillər İctimai Şuraların səmərəliliyini şübhə altına alır.

5. Nəticələr təhlil edilərkən diqqətimizi çəkən əsas məqamlardan biri də İctimai Şuraların yaradılmasında müşahidə edilən yubanmadır. Ali dövlət qurumlarının göstərişlərinə aşağı qurumların ləng reaksiyası təəssüf doğurmaqla yanaşı, bir sıra neqativ mənzərəni də qabarıq göstərir. Xüsusilə də müvafiq dövlət orqanlarının öz fəaliyyətlərinə ictimai nəzarəti arzulamadıqları çox açıq təzahür edir. Şuraların yaradılmaması üzrə məsuliyyətin müəyyən

edilməməsi, konkret vaxt çərçivəsinin olmaması belə qurumlara əlavə imkanlar açır. Faktiki olaraq İctimai Şuraların aydın səlahiyyət çərçivəsi və müstəqilliyi olmasa da, müvafiq qurumlar onun yaradılmasına olduqca etinasızlıq göstərirlər. Praktika göstərir ki, müvafiq qurumlar bu istiqamətdə qanunvericiliyin tələblərinə əməl etməkdə maraqlı deyillər.

6. Şura üzvlərinin yanaşmasına əsasən, İctimai Şuraların yaradılmasının məqsədi müvafiq dövlət qurumlarına ictimai nəzarət mexanizmləri formalaşdırmaqla yanaşı, həm də vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnu geçəkləşdirməyə təminat yaradır. İctimai Şuralar müvafiq mərkəzi və yerli icra hakimiyyəti, habelə yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurum kimi fəaliyyət göstərir. Sorğular və digər vasitələrlə əldə etdiyimiz məlumatlara əsasən müəyyən olunub ki, hələ Qanun qəbul olunmamışdan öncə də təcrübədə bəzi mərkəzi icra hakimiyyəti orqanlarının QHT-lərlə müxtəlif əməkdaşlıq platformaları olub. Hazırda fəaliyyətdə olan Şura üzvlərinin bir qrupu məhz mövcud Qanunun qəbulundan daha öncə bu istiqamətdə işə başlayıblar. Ümumilikdə İctimai Şura üzvlərinin mütləq əksəriyyəti seçkilər qaydasında və təşkil olunan orqanın səlahiyyətli şəxsinin təklifi əsasında təmsilçilik hüququ qazanıb.

7.Bəzi İctimai Şuraların fəaliyyətdə olan tərkibi Qanun qüvvəyə mindiyi tarixdən əvvəl formalaşsa da İctimai Şuralara seçkilərin keçirilməsi qaydaları ilə tanışlıq problemləri yoxdur. Şura üzvləri seçkilər haqqında məlumatı müvafiq icra orqanlarının veb səhifəsindən, mediadan, sosial şəbəkələrdən və tanışlarından əldə etməklə qurumun işində iştirak etdiyini bildiriblər. Mütləq əksəriyyət hesab edir ki, mövcud mexanizm seçkilərin obyektivliyini təmin edir və bu cür formalaşdırma ilə müvafiq sahələr üzrə ekspertlərin Şurada təmsilçiliyini təmin etmək daha əlverişlidir. Bununla yanaşı, seçki mexanizmində komissiyaların maraqlı tərəflərdən təşkil edilməsi, seçki keçirilən orqanın komissiyalara təsir imkanlarının olması, habelə VCİ nümayəndələrinin seçki komissiyalarına dəvət edilməsi praktikasında üzvləri qane etməyən məqamlar da var.

8.İctimai Şura üzvlərinin mütləq əksəriyyəti təmsil olunduqları Şuranın əsasən səmərəli fəaliyyət göstərdiyi qənaətindədir. Hər üç ayda bir dəfə iclasların keçirilməsini, iclasların gündəliyinə üzvlərin təklif verməsini və iclasdan əvvəl tanışlıq üçün gündəliyin üzvlərə göndərilməsini səmərəli fəaliyyət hesab edir. Habelə İctimai Şura sədrinin yanında fəaliyyət göstərdiyi müvafiq orqanla iclasın gündəliyini razılaşdırması da ümumi işin effektini artıran hal kimi qiymətləndirilir. Şuranın səmərəli fəaliyyət göstərə bilməsinə mənfi təsir göstərən amillərin olduğunu da üzvlər yumşaq şəkildə inkar etmirlər. Lakin bunu, əsasən müvafiq təcrübənin yoxluğu, üzvlərin lazımi qədər səriştəli olmaması və səmərəli fəaliyyət üçün əlverişli şəraitin yaradılmaması ilə əlaqələndirirlər. Dövlət orqanlarının səmərəli əməkdaşlıqda maraqlı olmadığını və İctimai Şura üzvlərinin müstəqilliyi ilə bağlı problemlərin mövcudluğunu Şura üzvləri əsasən qəbul etmirlər.

9.İctimai Şura üzvləri əsasən qarşılarında duran vəzifələrin həyata keçirilməsi üçün zəruri bilik və bacarıqlara sahib olduqları qənaətdədirlər. Bununla yanaşı, müvafiq sahə üzrə qanunvericilik

bazasının öyrənilməsi, dövlət və QHT idarəetməsi ilə bağlı təcrübənin  artırılması, habelə yaxşı idarəetmə prinsipləri, ictimai əlaqələr, ictimai müzakirələrin təşkili və aparılması, ictimai rəy sorğusunun keçirilməsi, ünsiyyət bacarıqları üzrə vərdişlərə yiyələnməsinə də ehtiyac olduğu təsdiq olunur.

10. İctimai Şuralar öz fəaliyyəti çərçivəsində müvafiq icra hakimiyyəti orqanına məlumat və hər hansı hüquqi aktın layihəsi üçün müraciət etmək, bir sıra məsələ ilə bağlı təkliflər vermək, ictimai əhəmiyyətli məsələlərin həllinə dair VCİ-nin təkliflərini toplamaq və müvafiq orqanlara təqdim etmək kimi təşəbbüslərindən uğurla istifadə edirlər. Şuralar yanında fəaliyyət göstərdiyi icra hakimiyyəti orqanından zəruri olan məlumatlar üçün müraciət etdikdə müraciətlərin dərhal təmin edildiyini də qeyd edirlər. Şuralar ictimai əhəmiyyət kəsb edən məsələlər üzrə bir sıra ictimai tədbirlər təşkil etmək, öz fəaliyyəti barədə əhalini mütəmadi məlumatlandırmaq, illik hesabatlar hazırlayıb dərc etmək kimi gördüyü işləri də nümunə göstəriblər. İctimaiyyətlə məsləhətləşmələrin aparılması, müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi, hüquqi aktların layihələrinin hazırlanması, müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər verilib. Habelə İctimai Şuraların indiyədək ictimai əhəmiyyət kəsb edən məsələlər üzrə ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər təşkil etdiyini, öz fəaliyyəti barədə əhalini media, sosial şəbəkələr, radio, TV, veb-saytlar və digər üsullarla məlumatlandırdıqları, həmçinin illik hesabatlar hazırlayaraq dərc etdikləri ifadə edilmişdir.

## *b. Tövsiyyələr*

1.İctimai Şuralar və onun fəaliyyəti barədə QHT-lərin məlumatlılığını analiz edərkən toplanmış məlumatlarla Şura üzvlərinin ifadə etdiyi fikirlər arasında çoxsaylı ziddiyyətlər ortaya çıxır. Şura üzvləri əsasən mövcud qurumları həm qanunvericilik, həm də praktik baxımdan daha müsbət dəyərləndirdiyi halda, QHT-lər əks mövqe ifadə edirlər. Fikir fərqliliyinin səbəbləri kimi ya QHT-lər İctimai Şuralar haqqında dolğun məlumat əldə etmədiklərinə görə bu qurumlar haqqında müsbət qənaətə gəlməyib, ya da Şura üzvləri müvafiq qurumlar tərəfindən bu prosesə daxil edildikləri üçün Şuranın imicini qorumaq öhdəliyi daşıyırlar. Bu istiqamətdə müxtəlif metodlarla əldə edilən məlumatların ümumiləşdirilməsi göstərir ki, İctimai Şura üzvləri yanında fəaliyyət göstərdiyi icra hakimiyyəti orqanından asılı və ya tabe olduqda nəinki səmərəli ictimai nəzarət funksiyasını icra edə bilirlər, hətta açıq sorğularda belə problemləri ifadə etməyə çətinlik çəkirlər. Şura üzvlərinin müstəqilliyini təmin etmək məqsədilə mütləq qanunvericiliyə yeni standartlarin daxil edilməsi məqsədəmüvafiq hesab olunur.

2.İctimai Şuraların müasir internet kommunikasiya vasitələrindən istifadə edərək özləri haqqında məlumatlılığı artırması, intensiv bilgilər təqdim etməsi, maraqlı tərəflərin daha asan və dolğun məlumatlanması məqsədilə sosial şəbəkələrdə səhifələrin yaradılması, sosial media ilə sıx əməkdaşlığı zəruridir. Müvafiq yuxarı dövlət orqanlarının İctimai Şuraların konkret və aydın

səlahiyyətlərini müəyyən etməsi məqsədilə konseptual yanaşma sərgiləməsi də vacib sayıla bilər. Şuraların tövsiyə xarakterli qərarlarının icra mexanizmlərinin olması müvafiq icra qurumlarının məsuliyyətini artırar. Prosesin sürətləndirilməsi və inzibati tədbirlərin yubanmadan həyata keçirilməsi üçün aydın metodiki təlimatlar hazırlanmalıdır.

3.Fəaliyyətdə olan qurumlara ictimai marağı təmin etmək, ictimai nəzarətin səmərəliliyini artırmaq məqsədilə İctimai Şuraların mütəmadi olaraq ictimaiyyətə yazılı hesabat verməsi, əldə etdikləri bilgilərin, gördükləri işlərin açıq müzakirəsini təşkil etməsi QHT-lərlə yanaşı, vətəndaşların da diqqətini cəlb edər. İctimai Şuralar haqqında məlumatlar yalnız müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet səhifələrində yerləşdirildiyindən bir çox hallarda maraqlı tərəflərin bu barədə asan məlumat alması mümkün olmur. Müvafiq qurumların bu istiqamətdə işlək qərarlar qəbul etməsi zəruridir.

4. İctimai Şuraların səmərəli fəaliyyət göstərməsi, qarşıya qoyulan məqsədlərə nail olması və real nəticələr əldə etməsi üçün onların tam müstəqilliyi və şəffaflığı təmin edilməlidir. Müvafiq icra qurumlarının şəffaflığa və müstəqilliyə mane olan bütün neqativ müdaxilələri qanunvericilik qaydasında aradan qaldırılmalı,  VCİ-lərə, xüsusilə də QHT-lərə İctimai Şuraların yaradılması istiqamətində müstəqil təşəbbüs göstərmək səlahiyyətləri verilməlidir. İcra orqanlarının fəaliyyətinə onun özünün müəyyən etdiyi məhdud çərçivədə nəzarətin təşkili heç bir müsbət dəyişiklik yarada bilməz. Habelə, İctimai Şuraların təşkili istiqamətində şəhər və rayon icra qurumlarına eyni meyarlarla yanaşılmasını da doğru hesab etmirik. Real vəziyyətin monitorinqi göstərir ki, rayonlarda VCİ-lər yox səviyyəsindədir və hər hansı effektli ictimai nəzarət funksiyasını daşıya bilməz. Bu məqsədlə qanunvericiliyə məcburi qaydaların, rayon və şəhərlərə fərqli meyarların gətirilməsi problemin həllinə öz töhfəsini verə bilər.

5. İctimai Şuralara seçkilərin şəffaflığı və obyektivliyi ciddi önəm daşıyır. Şuraların gələcək fəaliyyətinə təsir göstərən əsas amillərdən biri də məhz seçkilərdir. Seçki keçirən orqanın özünə uyğun VCİ nümayəndələrini seçki komissiyalarına dəvət etməsi, seçki komissiyalarının maraqlı tərəflərdən təşkil olunması praktikası dəyişilməli, habelə seçki keçirilən orqanın seçki komissiyalarına təsir imkanları ortadan qaldırılmalıdır. Müvafiq qurumlara ictimai nəzarəti həyata keçirən İctimai Şuraların formalaşmasını bilavasitə onu təşkil edən qurumun təsirindən çıxarılmalı və digər müvafiq dövlət qurumlarına həvalə edilməlidir.

6.İctimai Şura üzvləri əsasən qarşılarında duran vəzifələrin həyata keçirilməsi üçün zəruri bilik və bacarıqlara sahib olduqları qənaətində olsalar da, bu sahədə də xeyli çatışmazlıqlar vardır. Müvafiq sahə üzrə qanunvericilik bazasının öyrənilməsi, dövlət və QHT idarəetməsi ilə bağlı təcrübənin artırılması, habelə yaxşı idarəetmə prinsipləri, ictimai əlaqələr, ictimai müzakirələrin təşkili və aparılması, ictimai rəy sorğusunun keçirilməsi, ünsiyyət bacarıqları üzrə vərdişlərə yiyələnməsinə də ehtiyac olduğu təsdiq olunur. İctimai Şura üzvlərinin bilik və bacarıqlarının artırılması üçün təlimlər, seminarlar və digər tədbirlər təşkil edilməlidir.

7. İctimai Şuraların yaradılmasının təmin edilməsi üçün“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanın 1.1.2. və 1.2.3. bəndlərinin icrası təmin edilməlidir.